Bülleten No: 15 / mart 2014

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
Məlumat Hesablama Mərkəzi

Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

MART 2014

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



# Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə"ni "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə"yə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 619; 2008, № 11, maddə 970; 2009, № 7, maddə 533, № 12, maddə 983; 2011, № 2, maddə 85) aşağıdakı məzmunda 10.37-1-ci bənd əlavə edilsin:



"10.37-1. "Elektron hökumət" portalının yaradılmasını, idarə olunmasını, fəaliyyətini və inkişafını təmin edir;".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 fevral 2014-cü il.*

# "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının 2013-cü il 17 dekabr tarixli 853-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının 2013-cü il 17 dekabr tarixli 853-IVQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının təsvirini, spesifikasiyasını və nümunəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun 1.4-cü maddəsində nəzərdə tutulmuş "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.6. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

www.e-gov.az

3. Müəyyən edilsin ki:

3.1. "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun 1.3-cü və 1.4-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin Qanunun 1.2-ci və 3.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

3.3. həmin Qanunun 3.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, habelə rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhərdə rayon icra hakimiyyətlərinin nümayəndəlikləri həyata keçirirlər;

3.4. həmin Qanunun 3.8-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

## Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədi ilə qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla iki ay müddətində:

1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə hüquqi şəxslərin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin (fərdi sahibkarların) "bir pəncərə" prinsipinə uyğun olaraq elektron qeydiyyatı zamanı prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə birlikdə tikintiyə icazələrin verilməsi sahəsində mövcud prosedur və müddətlərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Azərenerji" ASC və "Bakıelektrikşəbəkə" ASC ilə birlikdə elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulunun təşkili, prosedur, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı sahəsində prosedur, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

5. Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə kreditlərin verilməsi prosesinə təsir edən təsisatların fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə korporativ idarəetmənin təkmilləşdirilməsi və investorların maraqlarının qorunması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

7. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

8. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

9. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

## "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Dövlət orqanlarında müasir informasiya - kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində insanların müxtəlif xidmətlərdən istifadə etmək imkanları asanlaşmış, həmin xidmətlərin keyfiyyət və səmərəliliyi artmış, informasiya cəmiyyətinin dayanıqlı və davamlı inkişafına etibarlı zəmin yaranmışdır.**

Müasir texnologiyaların məhkəmələrin fəaliyyətində tətbiqi məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçiliyin və sui-istifadə hallarının qarşısının alınmasına, aşkarlıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və elektron sənəd dövriyyəsinin təmin edilməsinə xidmət edəcəkdir.

Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron məhkəmə" informasiya sistemi yaradılsın.

2. "Elektron məhkəmə" informasiya sistemi aşağıdakıları təmin etməlidir:

2.1. ərizə, şikayət və digər sənədlərin elektron formada qəbulunu;

2.2. cinayət işləri, mülki, inzibati, iqtisadi mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə icraatın elektron qaydada aparılmasını və sənədlərin elektron dövriyyəsini;

2.3. məhkəməyə daxil olan işlərin hakimlər arasında avtomatlaşdırılmış qaydada bölgüsünün aparılmasını;

2.4. məhkəmədə işlərə baxılması vaxtlarına dair elektron cədvəlin tərtib edilməsini;

2.5. məhkəmə prosesində iştirak edən şəxslərə məlumatların elektron qaydada (elektron poçt, SMS məlumatlandırma və s.) çatdırılmasını;

2.6. məhkəmə proseslərinin audio, video və digər yazan texniki vasitələrdən istifadə etməklə qeydə alınmasını və onları onlayn rejimdə müşahidə etmək imkanının yaradılmasını;

2.7. işlər üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsini və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksiyalara malik olmasını;

2.8. qəbul edilən məhkəmə qərarlarının icraya yönəldilməsinin və icra prosesinin izlənilməsini;

2.9. sistemdə proses iştirakçısının iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan verilən şikayət və ya protestlər barədə məlumat almaq imkanlarına malik "şəxsi kabineti"nin yaradılmasını;

2.10. "Elektron hökumət" portalı ilə və Azərbaycan Respublikasının Baş Prokurorluğunda tətbiq olunan informasiya sistemi ilə inteqrasiyanı;

2.11. məhkəmə statistikasının elektron qaydada aparılmasını;

2.12. məlumatların sistemləşdirilmiş şəkildə saxlanılmasını.

3. Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan "Elektron məhkəmə" informasiya sisteminin təşkilini və fəaliyyətini birgə təmin etsinlər, "Elektron məhkəmə" informasiya sistemindən istifadə qaydalarını müəyyən etsinlər;

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Sərəncamın 2-ci hissəsində göstərilənlərə uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin fəaliyyətini təmin etmək üçün qanunvericilik aktlarına dəyişikliklərin edilməsi barədə təkliflərini üç ay müddətində hazırlayıb təqdim etsin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

www.e-gov.az

# Elektron xidmət növlərinin siyahısında hansı dəyişikliklər edilib?

**Azərbaycan Nazirlər Kabineti "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edib.**

NK-nın rəsmi saytına istinadən verdiyi məlumata görə, dəyişikliklərə əsasən, "Elektron xidmət növlərinin Siyahısı"na 10.13-cü və 10.14-cü bəndləri əlavə edilib.

Əlavə edilən 10.13-cü bəndə "Bitki və bitkiçilik məhsullarının idxalına və ixracına, təkrar ixracına, Azərbaycan Respublikasının ərazisində daşınmasına və dövriyyəsinə idxal karantin icazəsinin, təkrar ixracat fitosanitar sertifikatının və fitosanitar sertifikatlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu" xidməti, 10.14-cü bəndə isə "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağının aparılması və qeydiyyata alınması üçün müraciətin və sənədlərin qəbulu" xidməti daxildir.

Qeyd edək ki, sözügedən xidmətlər Kənd Təsərrüfatı



Nazirliyi tərəfindən həyata keçiriləcək.

Bundan əlavə, "Elektron xidmət növlərinin Siyahısı"nın 30.11-ci - 30.14-cü bəndləri ləğv edilib.

Bu bəndlər Dövlət Sosial Müdafiə Fondunun "Şəxsi hesab vərəqəsindən çıxarışın sığortaedənə verilməsi", "Üzləşmə aktlarının sığortaedənə verilməsi", "Növbəti səyyar yoxlamanın keçirilməsinin vaxtının dəyişdirilməsi üçün müraciətin qəbulu" və "Növbədənkənar səyyar yoxlamanın keçirilməsi üçün müraciətin qəbulu" xidmətlərini əhatə edir.

# Səlim Müslümov: "Əlillik təyinatı ilə bağlı aidiyyəti qurumlar arasında məlumat mübadiləsi tam avtomatlaşacaq"

**"Əlilliyin müəyyən olunması ilə bağlı əhalidən şikayət xarakterli müraciətlərin sayı dəfələrlə azalıb. Amma neqativ halların hələ də mövcud olduğu barədə məlumatlar da daxil olur. Bizim məqsədimiz bu sahədə şəffaflığı tam təmin etməkdir.**

Bundan sonra əlillik təyinatında mövcud olan kağız arayışların verilməsinə son qoyulacaq. Hazırda tibbi-sosial ekspertiza xidmətində aparılan islahatların mühüm bir istiqaməti kimi əlilliyin müəyyən olunması prosedurunun avtomatlaşdırılması işləri aparılır. Bununla bağlı olaraq, müvafiq proqram təminatının hazırlanması işləri artıq başa çatmaq üzrədir. Yaxın vaxtlarda biz artıq bu işlərin pilot mərhələsinə başlayacağıq.

İlk növbədə hər bir tibbi-sosial ekspert komissiyalarının (TSEK) sədrləri elektron imza ilə təmin olunacaq, əlillik təyinatı ilə bağlı aidiyyəti qurumlar arasında məlumat mübadiləsi tam avtomatlaşacaq". Bu fikri əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən iclasda bildirib. Nazir əlilliyin müəyyən olunması sahəsində fəaliyyət mexanizminin müasir tələblərə və şəffaflıq prinsiplərinə uyğun tərzdə yenidən qurulmasının son aylarda nazirliyin qarşısında əsas vəzifələrdən birinə çevrildiyini vurğulayıb.

Bu istiqamətdə konkret işlərin aparıldığını qeyd edən S.Müslümov eyni zamanda fəaliyyəti əhalidə ciddi narazılıq yaradan tibbi-sosial ekspert komissiyalarının sədrlərinin (TSEK) vəzifələrindən uzaqlaşdırıldığını bildirib: "Artıq 25-dək TSEK-n tərkibi dəyişdirilib. Bununla yanaşı, ilkin əlillik təyinatı ilə bağlı işlər nazirlik tərəfindən yaradılmış işçi qruplar tərəfindən yoxlanıldıqdan sonra təsdiqlənib". İclas-



da bildirilib ki, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının müddəalarının həyata keçirilməsi məqsədilə Azərbaycanda "Əlilliyi olan şəxslərin hüquqları haqqında" yeni Qanun layihəsi, həmçinin "2014-2018-ci illərdə əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Proqramı"nın layihə sənədi hazırlanıb.

"Ehtiyata və ya istefaya buraxılmış (orqanlarda xidmət etmiş) vətəndaşlara hərbi xidmətlə əlaqədar əlillik səbəblərinin müəyyən edilməsi barədə" Təlimat hazırlanıb. Əlillər barədə vahid məlumat bazasının yaradılması məqsədilə hazırlanmış xüsusi proqram təminatı üzrə məlumatların TSEK-lər tərəfindən doldurulması işləri davam etdirilir. İclasda S.Müslümov tibbi-sosial ekspertiza xidmətində aparılan islahat tədbirlərinin, o cümlədən əlillər barədə vahid məlumat bazasının yaradılması işlərinin sürətləndirilməsi və s. barədə tapşırıqlar verib.

# Azərbaycanda əmək kitabçaları ləğv ediləcək

**Azərbaycanda əmək kitabçalarının ləğv edilməsi planlaşdırılır. Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov jurnalistlərə açıqlamasında bildirib.**

Nazirin sözlərinə görə, əmək kitabçalarının yerinə elektron bildirişlər fəaliyyət göstərəcək:

"Hər bir işəgötürən işə götürdüyü istənilən yeni adamla müqavilə bağlayan zaman onun haqqında bütün məlumatı elektron bazadan ala biləcək. Buna görə də hər hansı bir əmək kitabçasına əlavə ehtiyac qalmayacaq" - deyə, nazir qeyd edib.

S.Müslümov bildirib ki, bu, dünyanın çox yerində tətbiq olunur. Onun sözlərinə görə, Azərbaycanda da bu proses sürətlə həyata keçiriləcək. Nazir hazırda qanun və Nazirlər Kabinetinin tapşırıqlara uyğun olaraq, müvafiq tədbirlər həyata keçirildiyini bildirib:




"Bütün müvafiq proqram təminatları hazırdır. Qayda layihələri hazırlanıb, hazırda digər mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırılır. Düşünürəm ki, yaxın günlərdə bu barədə artıq təchizata başlanacaq. Bu da yekun nəticədə Azərbaycanda əmək kitabçalarının ləğvinə gətirib çıxaracaq" - deyə, nazir əlavə edib.

# Kristina Oyuland: "Azərbaycan elektron hökumətsahəsində Estoniyanı ötüb"

**Avropa Parlamentində "Azərbaycanda innovasiya və mobil kimlik: Avropaya rəqəmsal inteqrasiyanın yeni növü" mövzusunda konfrans keçirilib.**

Vergilər, Rabitə və İnformasiya Texnologiyaları nazirlikləri və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin dəstəyi ilə baş tutan tədbirdə Azərbaycanda "elektron hökumət" sahəsində həyata keçirilmiş islahatlar və digər əlaqədar məsələlər müzakirə edilib.

Konfransda Avropa Parlamentinin Estoniyadan olan deputatı Kristina Oyuland bildirib ki, Sovet İttifaqı dağıldıqdan sonra ölkəsində institusional sahədə islahatlar yeni texnologiyalar üzərində aparılıb. Bundan böyük fayda götürən və "Skype"ın vətəni Estoniyada elektron xidmətlər köhnə metodları üstələyib.

Sonra rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə vətəndaşlara göstərilən xidmətlərdə İKT-dən istifadənin zəruriliyindən danışıb. O, Azərbaycandakı elektron xidmətlərin cari vəziyyətilə bağlı məlumat verərək bu sahədə əldə olunan nailiyyətlərdən söz açıb.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov 2013-cü ildən etibarən "ASAN imza"nın istismara verilməsi və təhlükəsizlik sisteminin yaradılması istifadəçilərə mobil telefonları vasitəsilə rəqəmsal uyğunluğun müəyyənləşdirilməsinə imkan yaratdığını deyib.

Vergilər nazirinin müavini Sahib Ələkbərov da 2005-ci ildən etibarən "elektron hökumət"in yaradılmağa başlandığını diqqətə çatdıraraq planlı təsərrüfat və sovet sistemi səbəbindən Azərbaycanda vergi mədəniyyətinin yeni olduğunu xatırladıb. Elektron vergi sahəsində görülən işlər




haqqında iştirakçılara məlumat verən nazir müavini qeyd edib ki, Avropa İttifaqının dəstəyilə elektron audit sistemi hazırlanıb.

Estoniyanın İqtisadi İşlər və Rabitə Nazirliyinin Dövlət İnformasiya Sistemləri və Rabitə üzrə baş katibinin müavini Taavi Kotka Azərbaycanla rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıqdan məmnunluğunu bildirib. Enerji üzrə də əməkdaşlığın qarşılıqlı maraq üzərində qurulduğunu və bunun bütün sahələrə tətbiq edildiyini deyib. Yeni texnologiyaların və bu sahədə aparılan islahatların həm insanların həyatının rahatlaşması, həm də yeni iş yerləri, sərmayə yerləri, rəqəmsal bazarın yaradılmasında böyük rol oynadığını da deyib.

"Elektron hökumət"lə bağlı ikinci müzakirə panelində Azərbaycan Respublikasında "elektron hökumət"in cari vəziyyəti ilə bağlı ətraflı məlumat verib.

www.mhm.az

# 2015-ci ilin sonuna Bakının aktual məlumat bazasını özündə ehtiva edəcək daşınmaz əmlakın kadastrı tərtib ediləcək

**Son illər Azərbaycanda daşınmaz əmlakın kadastrının tərtibi ilə bağlı ciddi işlər görülür. Almaniyanın maliyyə dəstəyi ilə "Kadastr və daşınmaz əmlakın qeydiyyatı" layihəsi həyata keçirilir. Bunu Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov Daşınmaz əmlaklar haqqında Milli Məkan Məlumat Bazasının ictimai təqdimatı mərasimində çıxışı zamanı bildirib.**



Onun sözlərinə görə, Gəncə və Şəkinin bütün ərazisinin kadastr layihələrinin tərtibinə artıq başlanılıb. 2 il 6 ay ərzində bu iki rayon üçün elektron kadastr məlumat bazası və rəqəmsal kadastr xəritəsi hazırlanacaq: "2015-ci ilin sonuna Bakının müasir tələblərə cavab verən, aktual məlumat bazasını özündə ehtiva edəcək daşınmaz əmlakın kadastrı tərtib ediləcək. Artıq Bakı şəhərinin 5 rayonu (Səbail, Yasamal, Nəsimi, Nərimanov, Xəzər) üzrə daşınmaz əmlaklar haqqında mükəmməl elektron kadastr məlumat bazasının yaradılması və bu rayonların rəqəmsal kadastr xəritələrinin tərtibi üzrə işlər görülüb. Həmçinin respublikanın 2 milyon hektar ərazisinin elektron kadastr məlumat bazası yaradılacaq".

K.Həsənov qeyd edib ki, Ünvan Reyestri İnformasiya Sisteminin tətbiqi istiqamətində də komitə tərəfindən işlər görülür. Yaxın zamanda Sistemin tətbiqinə başlanılacaqdır.

Komitə sədri bildirib ki, hazırda respublikada ünvanvermə işləri yeni qaydalara əsasən aparılır: "Tərəfimizdən Bakı şəhəri üzrə 1235 küçə və prospektdə giriş ünvanları təyin edilib. Sumqayıt şəhərində adı, başlanğıcı və sonu məlum olan 70 küçədə giriş ünvanlarının təyini işi yekunlaşıb. Gəncədə də bu işlərə artıq başlamışıq. Hazırda Sumqayıt şəhəri üzrə yuxarıda qeyd olunan məkan məlumatları bazası formalaşdırılmışdır. Belə ki, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı, kadastr və ünvan reyestri bazaları fəaliyyət göstərir, əmlakların kütləvi qiymətləndirmə sistemi yaxın vaxtlarda istifadəyə veriləcək. Bakı şəhəri və ölkənin digər rayonları üzrə tədbirlər davam etdirilir".

K.Həsənov deyib ki, Komitənin fəaliyyət istiqaməti üzrə ümumilikdə 40-a yaxın xidmətdən artıq 16 elektron xidmət təşkil edilib. Bu xidmətlərin hamısı "Elektron hökumət" portalına inteqrasiya edilib: "Qısa zaman ərzində 9000-ə yaxın elektron müraciət daxil olub. 2014-cü ildə daha 15 elektron xidmətin təşkili və vətəndaşlarımızın istifadəsinə verilməsi nəzərdə tutulur. Bunlara dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən hərraclara sifarişlərin elektron qəbulu, icarə haqqı borcları barədə məlumatların SMS vasitəsilə icarəçiyə göndərilməsi, daşınmaz əmlaka dair xidmət haqqı barədə məlumatın elektron verilməsi, kadastr və texniki texniki məlumatların alınması üçün müraciətlərin elektron qəbulu və digər xidmətlər aid olacaq".




6 aylıq AzDataCom internet aylıq abunə haqqını öncədən ödəməklə



pulsuz Elektron İmza kartını qazanın

# Mart ayından etibarən "kupça"lar onlayn alınacaq

**Vətəndaşların bürokratik hallarla üzləşdiyi daha bir proses avtomatlaşdırıldı. Belə ki, bundan sonra "kupça"lar da onlayn alınacaq.**



Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) vətəndaşların, daşınmaz əmlak sahiblərinin və hüquqi şəxslərin nəzərinə çatdırır ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli Qanununun tətbiqi və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2014-cü il tarixli, 101 nömrəli Fərmanına əsasən, 2014-cü il mart ayının 3-dən etibarən daşınmaz əmlakın təsviri, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayış əmlak barədə sərəncam verənin və ya onun tərəfindən vəkil edilmiş şəxsin, hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərin ərizəsi və dövlət reyestrindən çıxarış olduğu hallarda, Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin müvafiq ərazilər üzrə yerləşən notariat kontorlarında elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində əldə edə biləcəklər.

Eyni zamanda, daşınmaz əmlak obyektinə sərəncam vermə barədə notariat qaydasında təsdiqlənmiş müqavilənin daşınmaz əmlakın dövlət reyestrini aparan Əmlak Məsələləri Dövlət Komitəsinin müvafiq qurumlarına göndərilməsi elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində həyata keçiriləcək.

Qeyd olunanları nəzərə alaraq, Əmlak Məsələləri Dövlət Komitəsi vətəndaşların nəzərinə çatdırır ki, 2014-cü il mart ayının 3-dən etibarən, sözügedən daşınmaz əmlaklarla bağlı xidmətlərdən istifadə üçün Əmlak Məsələləri Dövlət Komitəsi və Ədliyyə Nazirliyinin qarşılıqlı qaydada təşkil etdiyi həmin xidmətlərin göstərilməsi üçün Bakı şəhərində, respublikanın digər şəhər və rayonlarında yerləşən notariat kontorlarına birbaşa müraciət etməlidirlər. Bu xidmət dövlət reyestrindən qeydiyyatdan keçərək çıxarış əldə edən əmlak sahiblərinə aid edilir.

Daşınmaz əmlakın qeydiyyatı sahəsində şəffaflıq və operativliyin daha da artırılması istiqamətində müvafiq tədbirlər davam etdirilir.

# Penitensiar müəssisələrdə elektron məlumat köşkləri quraşdırılacaq




**İşsiz və işaxtaran vətəndaşların boş iş yerləri haqqında məlumat əldə etmək imkanlarının genişləndirilməsi üçün artıq 20-dək ali təhsil müəssisəsində, bütün rayon (şəhər) Məşğulluq mərkəzlərində və Əmək birjalarında, Regional Peşə Tədrisi mərkəzlərində, müxtəlif bölgələrdə əhalinin sıx toplaşdığı yerlərdə, ümumilikdə 129 yerdə elektron köşklər quraşdırılıb.**

Bunun ardınca isə penitensiar müəssisələrdə cəza çəkməkdən azad ediləcək şəxslərin əmək bazarında mövcud vəziyyət və vakansiyalar barədə məlumat əldə edə bilmək imkanlarına malik olması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən həmin müəssisələrdə elektron məlumat köşklərinin quraşdırılması nəzərdə tutulur.

Bu, Dövlət Məşğulluq Xidmətinin cari ilə dair Tədbirlər planında öz əksini tapıb.

Yaxın vaxtlarda cəza çəkməkdən azad ediləcək şəxslər elektron məlumat köşkləri vasitəsilə əmək bazarında tələb olunan peşə və ixtisaslar, həmçinin Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirləri, o cümlədən peşə hazırlığı kurslarının təşkili, bu kurslara cəlb olunma qaydaları barədə məlumat ala biləcəklər.

www.e-gov.az

# Azərbaycanda Elektron Hökumət üçün Təlim Mərkəzinin yaradılması üzrə koreyalı mütəxəssislərin iştirakı ilə təlimlər keçirilir



KOICA
Korea Internationl Cooperation Agency



**Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİKA) "Azərbaycanda Elektron Hökumət üçün Təlim Mərkəzinin Yaradılması" layihəsi çərçivəsində ölkəmizə mütəxəssis qrupu ezam edib.**

Martın 7-dək Azərbaycanda olacaq koreyalı mütəxəssislər Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) azərbaycanlı həmkarları ilə görüşlər keçirərək layihə ilə bağlı bir sıra məsələləri müzakirə edəcək.

Nümayəndə heyətinin başlıca məqsədləri azərbaycanlı dövlət qulluqçuları üçün standartlaşdırılmış informasiya-kommunikasiya texnologiyalarını (İKT) tövsiyə etmək və yenidən işləmək, həmçinin KOİKA Qrant Layihəsi çərçivəsində Azərbaycanda Elektron Hökumət üçün Təlim Mərkəzinin Yaradılması ilə bağlı İnformasiyalaşdırılmış Strategiya Planını hazırlamaqdan ibarətdir. Koreyalı mütəxəssislər həmçinin İT bacarıqları və İT təhsil sistemi ilə bağlı mövcud vəziyyəti araşdırmaq, dövlət qulluqçularının, xüsusilə İT sahəsində potensialın artırılması ilə bağlı RİTN-in tələblərini təhlil etmək və nazirliyin bu sahədəki gələcək planlarını öyrənmək niyyətindədirlər. Təhlilə əsasən, RİTN-in mövcud sisteminin yaxşılaşdırılması üçün təşkilati işlər, iş prosesi və onun idarə olunması ilə bağlı tövsiyələr veriləcək.

Koreyalı və azərbaycanlı mütəxəssislərin həmçinin onlayn kontentlər, layihənin qrafiki ilə bağlı müzakirələr aparacağı da nəzərdə tutulur.

Xatırladaq ki, "Azərbaycanda Elektron Hökumət üçün Təlim Mərkəzinin yaradılması ilə bağlı Koreya Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasındakı Qrant Razılaşması 2013-cü il, aprelin 18-də Koreya Respublikasının Azərbaycandakı səfiri Çoi Suk İnn və Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov tərəfindən imzalanıb. 3,7 milyon ABŞ dolları məbləğində büdcəyə malik layihə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİKA) tərəfindən həyata keçirilir. Layihənin məqsədləri Elektron Təhsil İnformasiya Sisteminin yaradılması, mərkəzi və regional e-hökumət təlim mərkəzinin qurulmasına dəstək verilməsi, informasiya texnologiyaları avadanlıqlarının təchiz edilməsi, azərbaycanlı dövlət qulluqçularının İKT potensialının artırılması, İKT və e-hökumət potensialının təşviq olunmasıdır.

# "Rəsmi hesabatların təqdim edilməsi"

Dövlət Statistika Komitəsinin "Elektron Hökumət" portalı üzərindən təqdim etdiyi "Rəsmi hesabatların təqdim edilməsi" adlı xidməti vardır. Bu xidmət vasitəsilə, səhiyyə, humanitar və hüquqpozmalar, sosial, nəqliyyat, rabitə, turizm və digər xidmət statistikalarını, əhali və gender siyahısı, əmək statistikası, kənd təsərrüfatı, ekologiya, qiymət, milli hesabatlar və makroiqtisadi göstəricilər, sənaye və tikinti, ticarət, əhalinin həyat səviyyəsi, ev təsərrüfatlarının tədqiqatı, keyfiyyətin idarə olunması, informasiya texnologiyaları, regionların sosial-iqtisadi inkişafı, ərzaq təhlükəsizliyi barədə rəsmi statistik məlumatlar əldə edə bilərsiniz.



# Elektron kitabxanalarla bağlı Milli Məclisə müraciət olunub

**Azərbaycanda nəşr olunan kitabların elektron variantının Milli Kitabxanaya təqdim edilməsi ilə bağlı Milli Məclisə müraciət edilib. Bu barədə mətbuata M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov məlumat verib.**



Onun qənaətincə, nəşriyyatlar çap etdikləri kitabların elektron variantını kitabxanaya göndərmədiyi üçün bu sahənin inkişafı, şəbəkənin genişlənməsi çətinləşir. Direktorun sözlərinə görə, elektron kitabxana sahəsində ən böyük problem müəllif hüquqları məsələsidir.

Bu problemin bütün dünyada mövcud olduğunu önə çəkən K.Tahirov Türkiyə təcrübəsini misal çəkərək bildirib ki, qardaş ölkədə çap olunan kitabların elektron variantları məcburi qaydada kitabxanaya göndərilir:

“Ona görə də Milli Məclisə müraciət edib bildirmişik ki, “Kitabxana işi haqqında” qanuna düzəliş edilsin. Nəşriyyatlar çap etdikləri kitabların elektron variantını Milli Kitabxanaya məcburi göndərsinlər. Nəşriyyatların hansısa kitabın elektron variantını 20 qəpiklik diskə yazıb göndərməsi çətin iş deyil. Biz isə həmin kitabın hazırlanmasına həftələrlə vaxt sərf edirik. Düşünürəm ki, Milli Məclis bu məsələni müsbət həll edəcək. Bu, bütün dünyada qəbul olunan formatdır. Təəssüf ki, bizdə bu problemlər mövcuddur. Milli Kitabxananın elektron kitabxanasında 1,5 milyondan artıq informasiya resursu var. Biz Milli Kitabxanaya daxil olan kitabların elektron versiyasını yaradıb lokal şəbəkədə yerləşdiririk. Arxiv fondunda olan materialların tam şəkildə elektron kitabxanasını yaratmışıq. Hətta qəzetlərin elektron versiyalarını yaradırıq. Məsələn, “Azərbaycan”, “Kommunist”, “Ədəbiyyat qəzeti”, hətta ötən əsrin əvvəllərində çap olunan “Əkinçi”, “İrşad”, “Həyat” qəzetlərinin elektron versiyalarını hazırlayırıq”.

# Komitə sədri Milli Məkan Məlumatları İnfrastrukturunun yaradılması ilə bağlı görülən işlərdən danışıb

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi (DTXK) Milli Məkan Məlumatları İnfrastrukturunun yaradılması ilə əlaqədar bir sıra qanunvericilik və institusional təşəbbüslər hazırlayıb, vahid elektron kartoqrafik əsas, zəruri standartlar və geoportalların hazırlanmasında, yeni nəsil geoxidmətlərin təqdim olunmasında önəmli addımlar atıb.

Komitə sədri bildirib ki, Milli Məkan Məlumatları İnfrastrukturu - vətəndaşların, təsərrüfat subyektlərinin, dövlət və bələdiyyə orqanlarının məkan məlumatlarının ehtiyatlarına əlçatanlığını, həmçinin məlumatların istehsalı və istifadəsinin səmərəliliyinin artırılması məqsədilə onların ümumistifadəli qlobal informasiya şəbəkəsində yayımını və mübadiləsini təmin edən informasiya telekommunikasiya sistemidir.

"Məlumdur ki, torpaq inzibatçılığı dedikdə torpaq və onunla əlaqəli ehtiyatların mülkiyyət hüququ, qiymətləndirilməsi və istifadəsi haqqında informasiyanın qeydiyyatı və yayılması prosesləri başa düşülür. Komitənin başlıca hədəflərindən biri kimi 2020-ci ilədək Azərbaycanda mükəmməl torpaq inzibatçılığı sisteminin formalaşdırılmasıdır", – deyə Q.Məmmədov qeyd edib.

O, həmçinin bildirib ki, Azərbaycan Respublikası Prezidentinin apardığı siyasətə uyğun olaraq Komitə Aparatının və tabelikdə olan qurumların strukturlarına yenidən baxılıb və müasir tələblərə cavab verən struktur vahidləri formalaşdırılıb. Komitənin Aparatında Geoməkan və informasiya texnologiyaları, beynəlxalq əlaqələr şöbəsi yaradılıb.




www.e-gov.az

# “Elektron hökumət” portalının “Facebook” səhifəsi istifadəçilərinin sayı 127 min nəfərə çatıb




"Elektron hökumət" portalının rəsmi "Facebook" səhifəsinə (www.facebook.com/egov.az) maraq günü-gündən artır. Hazırda səhifə istifadəçilərinin sayı 127 min nəfər təşkil edir.

Sözügedən "Facebook" səhifəsi ölkəmizdə "Elektron hökumət"in formalaşması istiqamətində görülən və nəzərdə tutulan işlər, layihələr haqda vətəndaşları maarifləndirmək, dövlət strukturlarının göstərdiyi elektron xidmətlərin hər bir vətəndaş üçün açıq olaraq portalda yerləşdirilməsini işıqlandırmaq, eyni zamanda ölkəmizdə informasiya cəmiyyəti quruculuğunda aparılan işləri təhlil və müzakirə etmək, istifadəçiləri keyfiyyətli elektron xidmətlərlə təmin etmək məqsədilə yaradılıb.

Qeyd edək ki, "Elektron hökumət" portalı üzərindən e-xidmətlərdən faydalanmaq istəyən istifadəçilər "Facebook" səhifəsinə daxil olaraq öz fikirlərini bildirir və paylaşırlar. Səhifəyə ünvanlanan suallar sosial tələb olaraq qəbul edilir, operativ şəkildə cavablandırılır, irəli sürülən təklif və rəylər mütəmadi olaraq nəzərə alınır.

Xatırladaq ki, "Elektron hökumət" portalı dövlət qurumları tərəfindən əhaliyə xidmət göstərilməsinin yeni üsuludur. Vətəndaşlara dövlət tərəfindən göstərilən xidmətlər burada elektron mühitdə təqdim edilir.




## Vətəndaşların həqiqi hərbi xidmətə çağırış sistemi İT-nin köməkliyi ilə təkmilləşdirilir

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Əsasnaməsinə uyğun olaraq, xidmət tərəfindən mərkəzləşdirilmiş uçot sistemlərinin təşkil edilməsi, o cümlədən hərbi qeydiyyat və hərbi uçot sahəsində vahid elektron informasiya sisteminin yaradılması sahəsində işlər aparılır. Vahid elektron informasiya sistemi vasitəsilə çağırışaqədər yaş həddində olan vətəndaşların, çağırışçıların və hərbi vəzifəlilərin qeydiyyatı və uçotu aparılacaq. Bu isə vətəndaşların həqiqi hərbi xidmətə çağırış sisteminin təkmilləşdirilməsində mühüm rol oynayacaq.

## Elman Rüstəmov: “Elektron ödənişlərin həcmi ÜDM-in 2 mislini ötüb”

“Mərkəzi Bank 2013-cü ildə də ödəniş infrastrukturunun inkişaf etdirilməsi və elektronlaşdırma istiqamətində geniş səpkili fəaliyyətini davam etdirib. Ölkədə nağdsız və elektron hesablaşmaların həyata keçirilməsinə imkan verən müasir ödəniş infrastrukturunun inkişafı daha geniş miqyas alıb”.

Bu fikirləri Mərkəzi Bankın sədri Elman Rüstəmov söyləyib. O, MB-nın İdarə Heyətinin 2013-cü ilin yekunlarına həsr olunmuş geniş kollegiya iclasında bildirib ki, ödəniş sistemlərinin sabitliyi və təkmilləşdirilməsi təmin edilib, elektron ödənişlərin həcmi ÜDM-in 2 mislini ötüb.

## Yanvar ayında elektron pərakəndə ticarət dövriyyəsinin həcmi 240 min manatı ötüb

Cari ilin yanvar ayında elektron pərakəndə ticarət dövriyyəsinin həcmi ötən ilin yanvar ayına nisbətən 1,7 dəfə artaraq 242,3 min manat təşkil edib.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əhali onlayn rejimi vasitəsi ilə sifariş verdikləri istehlak mallarının 84,5 faizini hüquqi, 15,5 faizini fiziki şəxslərin ticarət şəbəkələrindən alıb. Elektron ticarət dövriyyəsinin 91,9 faizini qeyri-ərzaq malları təşkil edib.

# "Elektron hökumət" portalına daxil olanların sayı 301 496 nəfərə çatdı



ŞƏKİL 1

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin (RİTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin fevral ayının 28-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 532 043 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 301 496 nəfər olub. Belə ki, 301 496 nəfər ümumən 523 043 dəfə portala baxıb və 897 300 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 1 866 970 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 54 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 56.9%-ni yeni istifadəçilər, 43.1%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün fevral ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 38 197 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 23 570 nəfər olub. Həmin şəxslər 145 799 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 76 745 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 54 saniyə təşkil edib. Fevral ayı ərzində portala müraciət edənlərin 52.2%-ni yeni istifadəçilər, 48.8%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 27553-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 318 ədəd olub.



ŞƏKİL 2

# "Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üçün müraciətin və sənədlərin qəbulu"

Səhiyyə Nazirliyinin "Elektron hökumət" portalı (www.e-gov.az) üzərindən təqdim etdiyi "Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üçün müraciətin və sənədlərin qəbulu" adlı elektron xidmət vasitəsilə xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üçün müraciətin və sənədlərin qəbulu mümkündür. Xidmətdən istifadə etmək üçün istifadəçi portalda Səhiyyə Nazirliyinin sözügedən elektron xidmətini seçməklə yeni müraciət menyusuna daxil olub, təhsil növünü qeyd etdikdən sonra tələb olunan məlumatları daxil edərək öz müraciətini göndərə bilər.



www.e-gov.az

## 01.02.2014 – 28.02.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 52358 |
| 2 | Sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı | Dövlət Sosial Müdafiə Fondu | 4530 |
| 3 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4456 |
| 4 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2984 |
| 5 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 1856 |
| 6 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1725 |
| 7 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1708 |
| 8 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 875 |
| 9 | Diplom haqqında məlumatlar | Təhsil Nazirliyi | 679 |
| 10 | FİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 608 |

## 01.03.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 39 | 104 | 143 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 28.02.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 12586 | 736 | 4963 | 18285 |

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.03.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 14 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 36 | 44 | 45 | 45 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 12 | 12 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 30 | 30 | 25 | 25 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 10 | 26 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 2 | 5 | 15 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 15 | 13 | 16 | 17 | 13 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 5 | 7 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 12 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 2 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 8 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | 0 | 0 | 6 | 9 | 0 |
| 45 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 46 | "Elektron hökumət" portalı | | | 2 | | |
| | **CƏMİ:** | **428** | **252** | **318** | **456** | **367** |

www.e-gov.az

## 2014-cü ilin fevral ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 17 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 3 | 5 |
| 3 | Energetika Nazirliyi | - | - |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 1 |
| 5 | Xarici İşlər Nazirliyi | 1 | 2 |
| 6 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | - | - |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 3 | 3 |
| 8 | Dövlət Gömrük Komitəsi | 4 | 208 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | 6 | 9778 |
| 10 | Dövlət Statistika Komitəsi | 1 | 1 |
| 11 | Vergilər Nazirliyi | 11 | 911 |
| 12 | Ədliyyə Nazirliyi | 7 | 928 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 1 | 5 |
| 14 | Fövqəladə Hallar Nazirliyi | 3 | 291 |
| 15 | Müdafiə Sənayesi Nazirliyi | - | - |
| 16 | Səhiyyə Nazirliyi | 23 | 352 |
| 17 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 5 | 7 |
| 18 | Diasporla İş Üzrə Dövlət Komitəsi | - | - |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | - | - |
| 20 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 7 | 159 |
| 21 | Dövlət Dəniz Administrasiyasi | - | - |
| 22 | Təhsil Nazirliyi | 3 | 952 |
| 23 | Gənclər və İdman Nazirliyi | - | - |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 13 | 1919 |
| 25 | İqtisadiyyat və Sənaye Nazirliyi | 6 | 10 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | - | - |
| 27 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 8 | 839 |
| 28 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 29 | Daxili İşlər Nazirliyi | 2 | 612 |
| 30 | Dövlət Sərhəd Xidməti | - | - |
| 31 | Müəllif Hüquqları Agentliyi | - | - |
| 32 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 164 |
| 33 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | - | - |
| 34 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | 3 | 148 |
| 35 | "AzərEnerji" ASC | 1 | 11 |
| 36 | "AzərSu" ASC | 1 | 100 |
| 37 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 22 |
| 38 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 35 | 59300 |
| 39 | Xarici İşlər Nazirliyi | - | - |
| | **CƏMİ** | **154** | **76745** |

## Elektron imza

Elektron imza Elektron dünyada şəxsiyyəti müəyyənləşdirmə vasitəsidir. Elektron imza anlayışı ümumi xarakter daşıyır. İnsanların əl imzalarının rəqəmli çeviricilərdən keçirilmiş, barmaq izləri, səs kimi bioloji əlamətlərinin və s. elektron halda kimliklərinin doğrulanmasını təmin edən vasitədir. Elektron imza elektron sistemdə imzanın malik olduğu bütün işləri yerinə yetirən, elektron sertifikat vasitəsilə bir elektron məlumata əlavə edilən və məlumatı göndərəni təyin edən bir ədədi koddur.



ELEKTRON İMZA



MOBİL ID



ELEKTRON HÖKUMƏT MƏRKƏZİ



HAKİMİYYƏT ORQANLARI MƏRKƏZİ

www.e-imza.az

© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az